**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**AYNUR VAHİD QIZI HÜSEYNOVA**

# İBTİDAİ SİNİF MUSİQİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİNİN FORMALAŞMASI ÜZRƏ İŞİN SİSTEMİ

5801.01 – Təlim tərbiyənin nəzəriyyəsi və metodikası
(musiqinin tədrisi metodikası)

pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2015**

*İş Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Metodika və xüsusi pedaqoji hazırlıq" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** *pedaqogika üzrə elmlər doktoru, professor*
**Jalə Həmid qızı Qədimova**

**Rəsmi opponentlər:** *Azərbaycan Respublikasının Əməkdar müəllimi, Pusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqoji üzrə elmlər doktoru, professor*
**Oqtay Məmmədağa oğlu Rəcəbov**

*Pedaqogika üzrə fəlsəfə doktoru*
**Sevinc Sərdar qızı Əliyeva**

**Aparıcı təşkilat:** Azərbaycan Müəllimlər İnstitutu "İbtidai və məktəbəqədər təhsilin metodikası" kafedrası.

Müdafiə «22» may 2015-ci ildə saat 12-$^{00}$ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1014, Bakı şəhəri Ş.Bədəlbəyli, 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Aftoreferat aprel ayının «     » 2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru: **Məmmədova Həbibə Vaqif qızı**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda böyüməkdə olan gənc nəslin musiqi tərbiyəsinə xüsusi diqqət verilir.

Musiqi dərslərində məktəblilərin musiqi mədəniyyətinin inkişafı onlarda mənəvi-estetik hisslərin də formalaşmasına səbəb olur. Məktəblilərin musiqi yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə müəllim onlarda incəsənət əsərlərini düzgün başa düşmək və qiymətləndirmək kimi keyfiyyətlər yaradır.

Musiqi tərbiyəsinin məqsəd və vəzifələrini, qanunauyğunluqlarını müəyyənləşdirməyə "Musiqi metodikası" adlanan fənn kömək edir. Hal-hazırda da musiqi kurikulumunun tələblərinə uyğun olaraq məktəb qarşısında qoyulmuş əsas vəzifələrin həyata keçirilməsində metodikanın rolu xüsusilə artır. Musiqi metodikasının inkişaf tarixilə əlaqədar biliklər bu sahədə olan çatışmazlığı daha aydın görməyə imkan verir.

Musiqi tərbiyəsinin həyatla əlaqəsi, musiqi incəsənətinə marağın, onun tərbiyəvi əhəmiyyətinin artırılması müəllimdən öz fənnini dərindən bilməyi və uşağın şəxsiyyətinə xüsusi diqqət artırmağı tələb edir. Bir həqiqəti yaddan çıxartmaq olmaz ki, məktəbli eyni zamanda dinləyici, ifaçı olub, həm də müəllimdən az bilik, bacarıq və vərdişlərə malik olmasına baxmayaraq, öz münasibətini musiqiyə bildirən bir fərddir. Bununla bərabər məktəblilərə yalnız müəyyən bilik, bacarıq və vərdişlər verməklə bərabər onlarda yaradıcılıq fəallığı yaratmaq da musiqi tərbiyəsinin əsas vəzifələrindən biridir. Yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi isə bilavasitə məktəblilərin mənimsədikləri biliklərlə, əldə etdikləri bacarıq və vərdişlərlə sıx əlaqədədir.

Hər bir xalqın yaradıcılığında əsrlər boyu özünəməxsus müxtəlif forma və janrlı, musiqi nümunələri mövcud olmuşdur. Bu mənada Azərbaycan xalqının xalq mahnıları, rəqsləri, aşıq musiqi nümunələrilə eyni zamanda qərinələrdən gəlib bizə çatmış muğamları mövcuddur. Kiçik yaşlardan başlayaraq muğamlarımızı öyrətmək və musiqi tərbiyəsi prosesində məhz xalq musiqi nümunələrindən istifadə etməklə məktəblilərimizin musiqi qabiliyyətlərinin inkişafında müəyyən addım atmaq mümkündür. Bu məqsədlə muğam və digər xalq musiqi janrlarının məktəbdə istifadə edilməsinin imkan və yollarının düzgün təyin edilməsinin xüsusi əhəmiyyəti vardır.

Məktəblilərimiz xalq musiqi nümunələrilə bərabər professional bəstəkarların yaratdıqları musiqi nümunələrilə də yaxından tanış olmalı və onları

qavramağı bacarmalıdır. Əlbəttə, onun ən təsirli yolu və üsulu həmin əsərlərin xalq musiqi nümunələrilə yaxınlığının məktəblilərə aydınlaşdırılmasıdır. Məhz bu üsul, müəllimə imkan verir ki, dinlənilən musiqi janrlarının (simfoniya, kantata, oratoriya və s.) məktəblilər tərəfindən daha asan və tez qavranılmasına kömək etsin.

Müxtəlif janrlı musiqi əsərlərinin qavranılmasında onları yaratmış bəstəkarlar haqqında düzgün, dəqiq və qısa məlumatların verilməsinin böyük əhəmiyyəti vardır. Belə ki, bəstəkar haqqında maraqlı faktlardan ibarət qısa məlumata malik məktəblilərdə həmin sənətkarın yaradıcılığına da maraq artır və şagird ona təqdim edilən musiqi nümunələrini diqqətlə dinləməyə, həvəs göstərməyə başlayır. Bunun isə qavrama prosesində böyük təsiri vardır.

Musiqi tərbiyəsi metodikası bu vaxta qədər tam şəkildə işlənilmişdir. Lakin təqdim olunan elmi-tədqiqat işində bu problemin müəyyən sahəsinin açılmasına cəhd göstərilmişdir ki, bunları da musiqi müəllimlərimizin bilməsi çox vacibdir.

Şagirdlərin bilik, bacarıq və vərdişləri mənimsəməsi, onların əqli qabiliyyətinin inkişaf etdirilməsi təhsil vasitəsilə həyata keçirilir. Tərbiyə və təhsil "təlim" vasitəsilə həyata keçirilir. Musiqi müəllimi tərəfindən şagirdlərə mənimsədilən bilik və bacarıqlar ilk növbədə musiqi təhsili məsələlərinə aiddir. Digər pedaqoji fəaliyyət növlərində olduğu kimi müəllimin fəaliyyətində də təlim sistemli və məqsədyönlü olmalıdır.

Təlim prosesində məktəblilər bilik və bacarıq qazanmaqla bərabər, eyni zamanda yaradıcı bir şəxsiyyət kimi formalaşmalı, sərbəst düşünən bir insan kimi öz biliklərini bacarığa, daha sonra isə vərdişə çevirə bilməlidirlər. Yəni şagirdlər qazandıqları musiqiyə dair bilik, bacarıq və vərdişlərdən yaradıcı surətdə istifadə etmək qabiliyyətlərinə malik olmalıdırlar.

Ümumpedaqoji aspektdə ibtidai sinif şagirdlərinin bilik, bacarıq və vərdişlərinə yiyələnməsi probleminə D.B.Elkoninin, V.V.Davıdovun, L.V.Zankovun, E.V.Nazaykinskinin, B.M.Teplovun, N.F.Talızinanın, L.V.Vıqotskinin, Y.B.Əliyevin və s. kimi pedaqoq-alimlərin tədqiqatlarında rast gəlirik.

Respublikamızda musiqi pedaqogikasının bu və ya digər problemləri N.S.Məlikməmmədovun, S.D.Quliyevin, V.C.Xəlilovun, O.M.Rəcəbovun, J.H.Qədimovanın, S.M.Əsgərovanın, T.F.Kəngərlinskayanın, M.R.Dadaşovanın, F.B.Sadıqovun, F.Ş.Hidayətovanın və digər pedaqoq-alimlərin tədqiqatlarında öz əksini tapmışdır. Böyük rus alimi, pedaqoqu, bəstəkarı,

akademik D.B.Kabalevski də bu problemlə uzun müddət məşğul olmuş və bu sahədə gözəl praktik nəticələr əldə etmişdir.

Göstərilən bu tədqiqat işləri ilə bərabər, deyə bilərik ki, təəssüflər olsun ki, kiçik yaşlı məktəblilərin bilik, bacarıq və vərdişləri mənimsənilməsilə əlaqədar bu vaxta qədər sanballı elmi axtarışlar çox azlıq təşkil edir.

Bu baxımdan təqdim olunan **problem** musiqi pedaqogikasında aktual olaraq qalır və özünün geniş şəkildə tədqiq olunmasını tələb edir.

Bu problem bir də ona görə **aktualdır** ki, məktəblilərin musiqiyə dair bilik, bacarıq və vərdişlərinə yiyələnmələri sahəsində bu günə kimi nəzəri və praktik metodlar müəyyən dərəcədə işlənilsədə, (O.M.Rəcəbov, S.D.Quliyev, N.S.Məlikməmmədov və s.) musiqi kurikulimuna uyğun yeni metodika tam sistemli şəkildə öz həllini tapmamışdır.

**Tədqiqatın obyekti** – ibtidai siniflərin "Musiqi" fənninin tədrisi prosesində kiçikyaşlı məktəblilərin musiqiyə dair bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasıdır.

Bununla əlaqədar tədqiqatın **predmeti** də müəyyənləşdirilir: - kiçik yaşlı məktəblilərdə musiqiyə dair bacarıq və vərdişləri müəyyən biliklər sisteminə əsaslanmaqla yaradılmış xüsusi metodikanın təsiri ilə formalaşdırılmasıdır.

**Tədqiqatın məqsədi** – müxtəlif nəzəri və praktik metodlar vasitəsilə kiçik yaşlı məktəblilərdə musiqiyə dair bilik, bacarıq və vərdişləri formalaşdırmaqdır. Pedaqogika, psixologiya, musiqişünaslıq sahəsindəki ədəbiyyatın öyrənilməsi və tədqiqatın müəllifinin uzun illər dövründə təcrübəsi belə **fərziyyəni** irəli sürməyə imkan yaradır: musiqi dərsləri prosesində mənimsənilmiş bilik, bacarıq və vərdişlər imkan verir ki, gələcəkdə kiçikyaşlı məktəblilər bu bilik, bacarıq və vərdişlərdən onlara məlum olmayan musiqi nümunələrinin qavranılmasında istifadə etsinlər.

Məqsəd və fərziyyə aşağıdakı **vəzifələri** müəyyən etdi:

1. Bilik, bacarıq və vərdişlərin mənimsənilməsi ilə əlaqədar nəzəri məsələləri araşdırmaq.

2. Şagirdlərdə müəyyən bacarıq və vərdişlərin yaradılması üçün metodika hazırlamaq və onun effektliliyini eksperiment yolu ilə sübut etmək.

**Tədqiqatın metodoloji əsasını** didaktika, psixologiya, pedaqogika, fiziologiya sahəsindəki bu günə kimi yaradılmış və araşdırdığımız problemə uyğun gələn elmi əsərlər təşkil etmişdir. Bunlardan əlavə, respublikamızda və bir sıra xarici ölkələrdə musiqişünaslıq, musiqi pedaqogikası, metodikası ilə əlaqədar nəzəri və təcrübi tədqiqatlar da öyrənilmişdir.

Tədqiqat zamanı aşağıdakı **metodlardan** istifadə olunmuşdur:

– Problemə uyğun gələn pedaqoji-psixoloji və ixtisasla əlaqədar ədəbiyyatın öyrənilməsi;

– Müəllimlərin və şəxsi pedaqoji təcrübələrin təhlili;

– Yaradılmış xüsusi metodikaya uyğun bilik, bacarıq və vərdişlərin səviyyələrinin təhlili;

– Kiçikyaşlı məktəblilərdə bilik, bacarıq və vərdişlərin formalaşdırılması üçün öyrədici eksperimentin həyata keçirilməsi;

– Pedaqoji eksperimentin nəticələrinin ümumiləşdirilməsi:

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Musiqiyə dair bilik, bacarıq və vərdişləri mənimsəmiş kiçikyaşlı məktəblidə analitik fəaliyyət də inkişaf edir.

2. Musiqi dərslərinin məzmunu kiçikyaşlı məktəblilərin yaş xüsusiyyətlərinə, mənimsəmə səviyyəsinə uyğun olarsa, onda onlarda bilik, bacarıq və vərdişləri daha asan formalaşdırmaq mümkündür.

3. Dissertasiyada öz əksini tapmış xüsusi metodika kiçikyaşlı məktəblilərin bilik, bacarıq və vərdişlərə yiyələnməsinə kömək edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardır:

– İlk dəfə olaraq, kompleks şəkildə, kiçikyaşlı məktəblilərin musiqiyə dair bilik, bacarıq və vərdişlərinin formalaşması xüsusi tədqiqat predmeti olmuşdur.

– Problemin vəziyyəti nəzəri, metodik və təcrübi səviyyədə təhlil edilmişdir.

– Kiçikyaşlı məktəblilərin musiqiyə dair bilik, bacarıq və vərdişlərinin formalaşdırılması üçün xüsusi metodika hazırlanmış və buna uyğun eksperiment aparılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondadır ki, işin nəticələri elmi-metodik tövsiyyələrin yaradılmasına səbəb ola bilər. Müəllif tərəfindən işlənilmiş və 2008-2012-ci illərdə Bakının 20, 31, 49, 132, 189, 190 və s. kimi məktəblərdə, Azərbaycanın bir çox bölgələrində, xüsusən Naxçıvan, Lənkəran, Astara, Masallı və Lerik rayonlarında eksperiment əsasında sınaqdan keçmiş xüsusi metodika üzrə musiqi dərslərində istifadə oluna bilər. İlk dəfə olaraq təhsil strategiyasında kurikuluma əsaslanan yeni musiqi dərsliklərin təhlili aparılmışdır.

**Tədqiqatın aprobasiyası** – Tədqiqatın mövzusu ilə əlaqədar müəllif çıxışlar etmiş və məqalələr çap etdirmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, iki fəsil, 5 yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın girişində mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsədi, fərziyyəsi, vəzifələri, medoloji əsasları, metodları, müdafiəyə təqdim olunan müddəalar, elmi yeniliyi, təcrübi əhəmiyyəti, aprobasiyası öz əksini tapmışdır.

**I fəsil** "Musiqi" fənninin tədrisi prosesində bilik, bacarıq və vərdişlərin formalaşmasının ümumi məsələləri adlanır və üç yarım fəsildən ibarətdir.

**1.1.** "Problemin "Musiqi" proqramlarında araşdırılması" adlanır. Bu yarımfəsildə keçən əsrin 20-ci illərdindən müasir dövrə qədər Azərbaycanda "Musiqi" fənni ilə əlaqədar yaradılmış proqramlar təhlil olunur. Yarımfəsildən məlum olur ki, Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində tədris olunan "Musiqi" fənni ilə əlaqədar ilk proqram 1923-cü ildə tərtib olunmuşdur. Bu proqramda öyrədilməyi lazım bilinən mahnılar qeyd olunsa da, onlar şagirdlərin yaş xüsusiyyətlərinə uyğun gəlmirdi və əsasən xalq mahnılarından ibarət idi. 1929-1930-cu illərdə tərtib olunmuş proqramlar əvvəlkindən fərqli olmamışdır. 1941-ci ildə bəstəkar İ.K.Abdullayev tərəfindən yaradılmış proqramda musiqi fənninin tədrisi nəğmə işləri, not və musiqi savadı işləri, ritmika, musiqi ədəbiyyatı kimi mərhələlərə ayrılır. 1951-ci ildə görkəmli musiqiçi və bəstəkar A.H.Gəray tərəfindən hazırlanmış "Musiqi və nəğmə" proqramında tərtibatçı bilik, bacarıq və vərdişləri musiqi fəaliyyəti prosesində formalaşdırmağı məsləhət görür. 1962-ci ildə görkəmli musiqiçi və maarifçi N.S.Məlikməmmədov tərəfindən hazırlanmış "Nəğmə" proqramında "Musiqi" fənninin tədrisi mahnı öyrənilməsi, musiqi savadı və musiqi əsərləri ilə tanışlıq kimi mərhələlərə bölünür. Musiqi proqramının "Nəğmə" sonradan, yəni 1964-1966-cı illərdə "Nəğmə və musiqi" adlandırılması elmi cəhətdən düzgün deyildir. Belə ki, "nəğmə" musiqinin janrlarından biridir.

1970-ci ildə "Maarif" nəşriyyatı tərəfindən çap olunmuş "Musiqi" adlanan I-IV siniflər üçün proqram (müəllifi S.Ə.Quliyev) da əvvəlki proqram kimi xorla oxumaq, musiqi savadı və musiqi ədəbiyyatı kimi mərhələlərə bölünmüşdür. Bu proqram 1985-ci ilə qədər qüvvədə olmuş və onun tələblərinə uyğun olaraq dərsliklər yaradılmışdır.

1985-ci ildə "Maarif" nəşriyyatı tərəfindən bəstəkar O.M.Rəcəbovun 10 ilə yaxın apardığı eksperimentlərin yekun nəticəsi olaraq I-VII siniflər üçün "Musiqi" proqramı çap olunur. Bu proqram dahi bəstəkar-pedaqoq D.B.Kabalevskinin proqramına əsaslansa da, not savadının verilməsi, ritmikadan və improvizasiyadan istifadə olunması ilə ondan fərqlənirdi.

Bu proqdamda hər bir rübün mövzusu öz əksini tapır və dərsdə mahnı oxumaq, musiqi dinləmə, notla oxuma, musiqili-ritmik hərəkət, elementar musiqi alətlərində çalmaq kimi musiqi fəaliyyəti növlərindən istifadə olunması məsləhət görülür və hər bir musiqi fəaliyyətinə xas olan bilik-vərdişlər göstərilmişdir.

Ulu öndər Heydər Əliyev həmişə təhsilə, elmə və mədəniyyətə, o cümlədən musiqi təhsilinə diqqət yetirərək demişdir ki, gələcək bilikli, elmli, istedadlı insanların çiyinləri üzərində qurulur. Məhz bu baxımdan 2004-cü ildə "Kurikulum islahatı"nın aparıcıları üçün qərar verilir və 2008-ci ildə Təhsil Nazirliyinin əmri ilə "Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları" adlı vəsait çap olunur. Bu vəsaitdə ibtidai siniflərdə tədris olunan fənlər üçün də hazırlanmış kurikulum öz əksini tapır. Bu sənədin ibtidai pilləsində şagirdlərin musiqi növlərinin forma, janr, üslub və ifadə vasitələri, xalqımızın musiqi tarixi haqqında ümumi məlumatlarla tanış olmaları, yaradıcı-estetik fəaliyyətlə bağlı (mahnı oxumaq, rəqs etmək və s.) ən sadə və ilkin bacarıqlara yiyələnmələri təmin edilir, milli musiqi, habelə ümumbəşər musiqi nümunələrinə maraq, yaradıcılığına meyil, mücərrəd və obrazlı təfəkkür, əməksevərlilik və digər iradi keyfiyyətlər formalaşdırılır.

Çap olunmuş "Musiqi kurikulumu"nda musiqi təhsilinin 3 məzmun xətti müəyyənləşdirilmişdir: musiqi aləmi, emosional dəyərləndirmə, musiqi fəaliyyəti.

Musiqi fənninin məzmunu sinifdən sində keçdikcə sadədən mürəkkəbə prinsipi ilə dəyişsə də, məzmun xətləri dəyişməz olaraq qalır.

Bu kurikulumda hər bir məzmun xətlərinə uyğun bilik, bacarıq və vərdişlərə aid standartlar müəyyənləşdirilmişdir.

Beləliklə, Azərbaycanda ilk "Nəğmə" proqramının yaranmasından "Musiqi" kurikulumuna kimi kütləvi musiqi təhsili müəyyən inkişaf dövrü keçmişdir. Bu dövrdə Azərbaycan bəstəkarlarının uşaqlara həsr etdikləri yeni musiqi əsərlərinin yaranması da təhsilin məzmununa öz müsbət təsirini göstərmişdir. Bu fənnin tədrisi təkcə proqram və dərsliklərin yaradılmasından deyil, eyni zamanda proqram materialını məktəblilərə öyrədən ibtidai sinif müəllimlərinin səviyyəsindən asılıdır ki, müasir dövrdə özünün tam müsbət həllini tapa bilsin.

Digər tərəfdən, kurikulum tələblərinə, standarlarına uyğun olaraq fonomüntəxəbatlarının da hazırlanmaması bu fənnin keyfiyyətlə həyata keçirilməsinə öz mənfi təsirini göstərir. Hətta bu gün ümumtəhsil məktəblərimizin ibtidai siniflərində bu səbəblərdən "Musiqi" fənni demək olar

ki, tədris olunmur, onu “Ana dili” və “Riyaziyyat” fənləri əvəz edirlər ki, bu da böyüməkdə olan gənc nəslin musiqi mədəniyyətinə mənfi təsir göstərir.

Apardığımız elmi araşdırmalar zamanı biz respublikamızda “Musiqi” proqramlarının yaradılması və təkmilləşdirilməsinin aşağıda göstərilən mərhələlərdən ibarət olduğu nəticəsinə gəldik: I mərhələ: 1923-1942-ci illər; II mərhələ: 1942-1951; III mərhələ: 1951-1970; IV mərhələ: 1970-1985; V mərhələ: 1985-2006; VI mərhələ: 2008-ci ildən bu günə qədər.

Bu mərhələdə yaradılmış proqramların hər biri öz dövrü üçün əhəmiyyətli olduğu kimi mənfi cəhətləri də olmuşdur. Təxminən 90 ili əhatə edən bir dövrdə yuxarıda qeyd etdiyimiz “Musiqi” proqramları ümumtəhsil məktəblərimizin ibtidai siniflərində nəzəri cəhətdən tətbiq olunsa da, praktik cəhətdən məktəblərimizin 80%-da bu proqramlardan, müəllimin hazırsızlığı, musiqi üzrə fonomüntəxəbatlarının olmaması və ümumiyyətlə bu fənnə Təhsil Nazirliyi, məktəb rəhbərləri səviyyəsində ikinci dərəcəli münasibət olduğundan musiqi dərsləri demək olar ki, tədris olunmur.

**1.2.** “Problemin “Musiqi” dərsliklərində qoyuluşu adlanır. Dissertasiya müəllifi bu yarımfəsildə Azərbaycanda “Musiqi” fənni ilə əlaqədar qeyd edir ki, 1922-ci ildən sonra bu fənn “Nəğmə” adı ilə tədris olunmuş və bir sıra not məcmuələri çap edilsə də sistemli şəkildə dərsliklərin yaradılması 1968-ci ilə təsadüf edir.

1968-ci ildə nəşr olunan ilk “Musiqi-nəğmə” dərsliyi böyük maarifçi N.S.Məlikməmmədov tərəfindən yaradılmış və 1970-ci ildən başlayaraq bu dərslik “Musiqi” adı ilə bir neçə dəfə nəşr olunmuşdur. Müəllif demək olar ki, bu nəşrlərdə heç bir dəyişiklik etməmişdir. Daha sonra N.S.Məlikməmmədov tərəfindən II sinif üçün, S.Ə.Quliyev III sinif üçün, S.M.Ələsgərov və S.Ə.Quliyev tərəfindən IV sinif üçün “Musiqi” dərslikləri “Maarif” nəşriyyatı tərəfindən çap olunur. Bu dərsliklər o dövr üçün məktəblilərin musiqi tərbiyəsi sahəsində çox böyük əhəmiyyətə malik idilər. Dərsliklərlə bərabər valların buraxılması “Musiqi” fənlərinin tədrisinin daha keyfiyyətli olmasına gətirib çıxarırdı.

Bu dərsliklər sonrakı illərdə heç bir dəyişikliklərin olmaması səbəbindən dissertasiyada 1974-cü ildən nəşr olunmuş dərslikləri araşdırılır.

1974-cü ildə N.S.Məlikməmmədovun I sinif üçün “Musiqi” dərslikləri Bakı şəhərindəki “Maarif” nəşriyyatı tərəfindən çap olunur. Adı çəkilən dərslikdə bilik, bacarıq və vərdişlər öz əksini tapmışdır.

Dissertasiyada eyni zamanda bu illərdə çap olunmuş S.Ə.Quliyevin III sinif üçün "Musiqi" dərsliklərində şagirdlərə veriləcək bilik və aşılanacaq bacarıq-vərdişlər öz əksini tapır.

1974-cü ildə Bakının "Maarif" nəşriyyatında nəşr olunmuş S.M.Ələsgərov və S.Ə.Quliyevin "Musiqi" dərsliyində bilik, bacarıq və vərdişlər sistemi müəlliflər tərəfindən qeyd olunur.

Sonrakı illərdə təkrarən bir neçə dəfə nəşr olunmuş I-IV sinif "Musiqi" dərsliklərində (O.M.Rəcəbov, T.M.Babayeva) heç bir dəyişiklik olmadığından dissertasiya müəllifi 2007-ci ildən başlayaraq respublikamızda çap olunmuş "Musiqi" dərsliklərini problem baxımından araşdırmışdır.

Bununla bərabər 1997, 1998, 2003-cü illərdə Azərbaycanda və rus dillərində respublikamızda çap olunmuş "Musiqi" dərsliklərini araşdıran dissertant belə bir nəticəyə gəlir ki, dərs prosesində biliklərin mənimsənilməsi və bacarıq-vərdişlərin aşılanması musiqi materialları əsasında həyata keçirilməlidir.

2008-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə "Ümumtəhsil məktəblərində I-IV siniflər üçün fənn kurikulumları" adlı vəsaiti çap olunur. Bu vəsaitdə ibtidai siniflərdə tədris olunan digər fənlərlə yanaşı "Musiqi" fənni üzrə kurikulumlar öz əksini tapmışdır. Bu kurikulumlarda "Musiqi təliminin məzmunu", "Məzmun xətləri", "İbtidai təhsil pilləsində məzmun xətləri üzrə təlim nəticələri", "Məzmun standartları", "Fəndaxili və fənlərarası inteqrasiya" elmi cəhətdən araşdırılır. Məhz bu kurikulumlara dair vəsaitin çapından sonra Respublika Təhsil Nazirliyinin əmrinə əsasən 2008-ci ildə "Musiqi-1", "Müəllim üçün metodik vəsait", 2009-cu ildə "Musiqi-2" dərsliyi, "Müəllim üçün metodik vəsait", "Məktəblilər üçün iş dəftəri", 2010-cu ildə "Musiqi-3" dərsliyi, "Müəllim üçün metodik vəsait", "Məktəblilər üçün iş dəftəri", 2011-ci ildə "Musiqi-4" dərsliyi "Müəllim üçün metodik vəsaiti", "Məktəblilər üçün iş dəftəri" nəşr olunaraq respublikamızın ümumtəhsil məktəblərinə göndərilir. Qeyd etmək lazımdır ki, bu dərs vəsaitlərindən dərsliklər və müəllim üçün metodik vəsaitlər pulsuz olaraq məktəblərə göndərildi. "Məktəblilər üçün iş dəftəri" isə valideynlər tərəfindən alınmalı idi. Qeyd etmək lazımdır ki, "Müəllim üçün metodik vəsait" və "Məktəblilər üçün iş dəftəri" "Musiqi" fənninin tədrisi prosesi üçün çox vacib idi.

Belə ki, ibtidai sinifdə "Musiqi" fənnini tədris edəcək müəllimin əlində il boyu bu fənni necə, hansı üsullardan və metodlardan istifadə etməklə əlaqədar zəngin bir dərs vəsaiti yaradılmışdı. "Məktəblilər üçün iş

dəftəri"nin əhəmiyyəti ondan ibarətdir ki, onlar əldə etdikləri bilikləri bu vəsaitdə tətbiq edərək bacarıqlar qazana bilirdilər.

Dissertasiyada I-IV siniflər üçün tədqiq olunan problemlə əlaqədar cədvəllərdən görünür ki, dərsliklərə daxil edilmiş bilik, bacarıq və vərdişlər sistemi əvvəlki illərdə fəaliyyət göstərən dərsliklərlə oxşar cəhətləri olmaqla bərabər, həm də fərqlənir. Belə ki, son təqdim olunmuş dərsliklərdə əvvəlki illərdə mövcud olan "Musiqi" dərsliklərinə oxşar cəhətləri belə göstərmək olar:

1) Verilən biliklər asandan başlayaraq mürəkkbə doğru inkişaf etdirilir.

2) Aşılancaq vərdişlər və bacarıqlar sadədən mürəkkəbə doğru inkişaf etdirilir.

3) Bilik, bacarıq və vərdişlər musiqi materialları əsasında mənimsənilir, aşılanır.

4) Bilik, bacarıq və vərdişlər pedaqoji prinsiplərə uyğun olaraq inkişaf etdirilir və məktəblərin yaş xüsusiyyətləri nəzərə alınır.

**Fərqli cəhətləri isə belə göstərmək olar.**

1) Bilik, bacarıq və vərdişlər şagird yönümlüdür.

2) Mənimsəniləcək bilik, aşılanacaq bacarıq və vərdişlərin səviyyəsi, standartları əvvəlcədən müəllimə məlumdur.

3) Bilik, bacarıq və vərdişlərin şagirdə aşılanması yeni, müasir təlim metodlarının tətbiqinə əsaslanaraq həyata keçirilir.

Dissertasiyanın **1.3.** "Problemin jurnal məqalələrində, dissertasiyalarda, elmi-metodik ədəbiyyatda işlənməsi" adlanır.

Təlim prosesinin əsas istiqaməti olan didaktika şagirdlərin bilik, bacarıq və vərdişlərin mənimsənilməsini obyektiv faktlar, elmi ümumiləşdirmələr, qanunlar sistemi əsasında öyrənir. Bu məqsədlərın həllindən uşaqların əqli inkişafı ilə bilavasitə asılıdır. Şagirdlərin təlimi və inkişafı vahid prosesin iki tərəfini təşkil edir. Tədqiq olunan problemi həll etmək üçün dissertant özünə qədər respublikamızda və xarici ölklərdə bu istiqamətdə yazılan elmi jurnallardakı məqalələrin, problemlə əlaqədar və ya ona uyğun olan monoqrafiyaların, elmi tədqiqatarın araşdırılmasını da qarşısında məqsəd kimi qoyur.

Problemlə əlaqədar çoxlu sayda elmi məqalə, dissertasiya işlərini, elmi-metodik ədəbiyyatı tədqiq edən dissertant bu yarımfəsildə aşağıdakı nəticələrə gəlir:

1. İbtidai sinif şagirdlərinə musiqiyə dair bilik, bacarıq və vərdişlərinin aşılanması sahəsində çox az elmi araşdırmalar mövcuddur.

2. Tədqiq etdiyimiz problemə yaxın olan elmi məqalə, dissertasiyalar və monoqrafiyalarda problem əsasən birtərəfli araşdırılır və bilik, bacarıq, vərdişlərə sistem halında münasibət, çox az hallarda yanaşmalar olur.

3. Problemə yaxın olan tədqiqat işləri əsasən ali məktəb tələbələrinə aiddirlər və kiçik yaşlı məktəblilərdə musiqiyə dair bilik, bacarıq və vərdişləri formalaşdırılması demək olar ki, bu günə kimi lazımı səviyyədə tədqiq edilməmişdir.

4. Bu gün ibtidai siniflər üçün "Musiqi kurikulumu, ona uyğun dərsliklər, iş dəftərləri, müəllim üçün metodik vəsaitlər yüksək səviyyədə hazırlansa da fonomüntəxəbatların olmaması, ibtidai sinif müəllimlərinin bu istiqamətdə zəif hazırlığı, müəllimlərin təkmilləşdirmə kurslarında məşğələlərin keyfiyyətsiz aparılması nəzəriyyənin təcrübəyə keçməsinə böyük maneçilik göstərir.

Yarımfəslin sonunda dissertasiya müəllifi aşağıdakı təklifləri verir: musiqi fənninin səmərəli tədrisini təmin etmək üçün həyatılıyə, emosionallığa, məşğələlərin kompleks mərhələlilik əsasında aparılmasına fikir verilməlidir.

Digər tərəfdən dissertant musiqi fənninin əsas məqsədini belə göstərir: mahnı oxuma, musiqili-ritmik hərəkətlər, musiqi dinləmə, sadə musiqi alətlərində çalmaq, imrpvizasiya kimi musiqi fəaliyyətlərinin tətbiqi prosesində şagirdlərə verilən bilik, bacarıq və vərdişlər müxtəlif istiqamətlərdə inkişaf etdirilsə də, mahiyyət etibarilə bir məqsədi güdür: böyüməkdə olan nəslin mənəvi-estetik tərbiyəsini, bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırmaq, onları hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi yetişdirmək və müstəqil Azərbaycan Respublikasının layiqli vətəndaşı kimi hazırlamaq.

**II fəsil** "Musiqi fənninin tədrisi prosesində bilik, bacarıq və vərdişlərin formalaşdırılması" adlanır və **2 yarım fəsildən** ibarətdir.

**2.1.** "Yeni musiqi kurikulumu"na uyğun olaraq ibtidai siniflərdə mənimsəniləcək "musiqi üzrə bilik, bacarıq və vərdişlər" adlanır.

Burada qeyd olunur ki, Azərbaycan Respublikasında "Musiqi" kurikulumuna uyğun yaradılmış musiqi təlimi sistemində şagirdlərə elementar deyil, konkret, yəni musiqi incəsənətinin ümumiləşdirilmiş qanunauyğunluqları haqqında biliklərin verilməsi nəzərdə tutulur. Eyni zamanda nəzərdə tutulur ki, musiqi haqqında ümumiləşdirilmiş biliklər mütləq musiqi əsərinin özündən çıxarılmalıdır, yəni dinlənilən, yaxud mahnı kimi ifa edilən musiqi əsərlərinə istinad edilərək biliklər məktəblilərə mənimsədilməlidir.

Dərsliklərin mövzululuğa əsaslanaraq qurulması təlimin məzmununu öz ətrafında birləşdirir və biliklərin bir növ bunların məntiqi nəticəsi olaraq yaranır.

"Musiqi" fənnində biliklər konkret bir əsərin qavrama prosesinə istiqamətləndirilir. Musiqinin müxtəlif cəhətlərini qiymətləndirməkdə şagirdlərə kömək olur, musiqinin ifadəli, savadlı və şüurlu ifasınaköməklik göstərir, bir sözlə musiqi bilikləri burada fənnin məzmununun nəzəri əsası kimi iştirak edir.

Müasir musiqi elmində musiqi mədəniyyəti sistemi anlayışı, bəstəkar yaradıcılığı, ifaçılıq və qavrama prosesi arasında əlaqə sistemləri sahəsində gərgin elmi axtarışlar gedir və bununla əlaqədar müəyyən nəticələr də əldə olunur.

Musiqi əsərlərinin dərk edilməsi dedikdə iki səviyyəli biliklər nəzərdə tutulur:

1) Musiqi incəsənəti haqqında tam təsəvvür yaranmasına kömək edən biliklər.

2) "Musiqini müşayiət" etməyə, yəni qavramağa kömək edən biliklər (B.V.Asafyev).

Hər iki bilik səviyyələri də bir-biri ilə dialektik qarşılıqlı əlaqədədir və bunlarsız da musiqi haqqında biliklər konkret musiqi əsərlərindən və onların məzmunu ilə əlaqədar yaranır. Beləliklə, musiqi bilikləri fənnin məzmununun bir elementi kimi iştirak edir. Musiqi haqqında biliklərin təşkilinin məntiqi, bilavasitə təlim prosesinin qanunauyğunluqları ilə əlaqədardır:

a) şagirdlərin musiqi inkişafında sistemlilik və ardıcıllıq;

b) yaş xüsusiyyətlərinə uyğun olaraq məktəblilərin intellektinin və emosionallığının formalaşdırılması;

c) biliklərin möhkəm mənimsənilməsi tələbi, biliklər arasında və təlimin məzmunun digər elementləri arasında əlaqədlərin yaradılması;

d) məktəblilərin musiqi inkişafı səviyyəsi.

Ümumiyyətlə, təlimin məzmununun müəyyənləşdirilməsində hansı musiqi biliklərin əsas, hansıların isə xüsusi olduğunu söyləmək bir o qədər də asan deyildir.

Əgər təlimin məzmununda musiqi haqqında konkret biliklər çoxluq təşkil edirsə, onlar incəsənət haqqında tam təsəvvür yarada bilməzlər.

Lakin, biliklər bir sistem halında təşkil olunubsa və musiqinin inkişafının müəyyən qanunauyğunluqlarını özlərində əks etdirirlərsə və musiqinin həyatla

əlaqələrini, onun sosial rolunu izah edə bilirsə, onda bu cür biliklər şagirdlərin incəsənətin müxtəlif sahələrindən baş çıxarmağa imkan yarada bilər.

"Musiqi kurikulumu"na əsaslanan yeni musiqi təlimi prosesi elə təşkil edilib ki, məktəblilərin diqqəti müəyyən musiqi anlayışları ətrafında cəmlənir. Hər bir musiqi bölməsi bir açar biliyin mənimsənilməsinə qulluq edir və hər bir dərs onun bütün istiqamərlərini, cəhətlərini açmaqla məşğuldur.

Bu yarımfəsildə dissertant ibtidai siniflərdə şagirdlərə veriləcək bilik və bacarıqların məzmununu siniflər üzrə müəyyənləşdirir və bunlara uyğun cədvəllər yaradır.

Bu cədvəllərdən göründüyü kimi ibtidai siniflərdə mənimsəniləcək biliklər və bacarıqlar asandan çətinə, sadədən mürəkkəbə prinsipi ilə düzülmüşdür və onlar arasında zəncirvari əlaqələr də mövcuddur.

Musiqi təlimində aparıcı bacarıqların formalaşdırılmasının müəyyən mərhələləri nəzərdə tutulmuşdur.

Ümumi pedaqogikada bacarıqların formalaşdırılmasının üç mərhələsi göstərilir:

a) yeni dərs materialının müəllim tərəfindən aydınlaşdırılması;

b) "nümunəyə görə" biliyin tətbiqi;

c) şagirdlər tərəfindən biliklərin sərbəst tətbiqi.

Musiqi bacarıqlarının formalaşdırılması prosesi də, məhz ümumi pedaqogikada göstərildiyi qaydada həyata keçirilir.

Burada biz aşağıdakı mərhələləri göstərə bilərik:

| I mərhələ | II mərhələ | III mərhələ |
|---|---|---|
| Bacarıqları formalaşdırmaq üçün şagirdlərin musiqi təcrübəsinin toplanılması. Uşaqların həyatda qazandıqları musiqi təcrübəsi dərs mövzuları ilə əlaqələndirilir. Müəllim bu təcrübəni sinfin xüsusiyyətlərinə, səviyyələtinə uyğun olaraq nəzarətdə saxlayır, onları fəallaşdırır və inkişaf etdirilməsi üçün şərait yaradır. Burada əyaniliyə xüsusi diqqət verilməlidir. Belə ki, əyanilik təlim prosesini zənginləşdirir. | Biliklərə giriş. Müəllim tərəfindən dərs materialı əsasında aydınlaşdırılır; Şagirdlər qarşısında problem situasiyası yaradılır. Biliklərə giriş mütləq şagirdlərin musiqi fəaliyyətləri müddətində həyata keçirilir. Bu mahnı oxuma, musiqi dinləmə, musiqi alətlərində çalma, musiqili-ritmik hərəkətlərdə həyata keçirilir. | Bacarıqların möhkəmləndirilməsi və dərinləşdirilməsi bütün musiqi fəaliyyətlərində həyata keçirilir. Burada şagirdlərin sərbəst olaraq əldə etdikləri biliklərin tətbiq etmələrinə diqqət yetirilməlidir. Müəllim çalışmalıdır ki, biliklərin tətbiqi təkcə dərsdə deyil, eyni zamanda məktəbdənkənar həyata keçirilsin. |

“Aparıcı musiqi bacarıqları” ilə bərabər “xüsusi musiqi bacarıqları” da mövcuddur və bu bacarıqlar musiqi fəaliyyətlərinin müxtəlif növləri vasitəsilə formalaşdırılır. Xüsusi bacarıqlar üç qrupa bölünürlər:

| *Xüsusi bacarıqlar qrupları* | *Xüsusi bacarıqların məzmunu* |
|---|---|
| **I QRUP: Musiqi dilinin müxtəlif elementlərinin, biliklərin tətbiqi ilə əlaqədar bacarıqlar.** | Bu bacarıqlar şagirdlərdə müxtəlif musiqi fəaliyyətlərində formalaşır və aşağıdakı ardıcıllıqla həyata keçirilir:<br>a) musiqi qavrama prosesində bu və ya digər bacarığın mənimsənilməsində qazanılan musiqi təcrübəsi;<br>b) musiqi terminlərindən qavrama prosesində istifadə təcrübəsi;<br>c) yeni musiqi nümunəsini ifa edərkən yaxud dinlərkən bilikləri tətbiq etməklə onların möhkəmləndirilməsi. |
| **II QRUP: bəstəkarlar, musiqi alətləri və s. kimi biliklərin tətbiqi ilə əlaqədar bacarıqlar** | a) Bəstəkarların həyat və yaradıcılıqları haqqında biliklərin tətbiqi, onların müqayisəsi və bəstəkar yaradıcılığına münasibətin bildirilməsi.<br>b) Musiqiçilər, musiqi alətləri, onların ifaçılıq xüsusiyyətləri, musiqi alətlərin tembrinə görə müqayisəsi və s. |
| **III QRUP: Not savadı ilə əlaqədar bacarıqlar.** | a) Notla əlaqədar biliklər mahnını, yaxud hansısa melodiyanı oxuyarkən tətbiq olunarsa, bu bacarığa çevrilir.<br>b) Dərsliklərdə özünə yer tapmış “musiqi nədən danışır?” və “Musiqi dili nədir?” kimi mövzular şagirdləri notla oxumağa hazırlayır. Burda şagirdlər notları uzunluqlarına, dinamikasına görə də ifa edirlər. |

İbtidai siniflərdə müxtəlif musiqi fəaliyyətləri ilə əlaqədar bacarıqlara diqqət yetirək. Birinci sinifdən başlayaraq dördüncü siniflər də daxil olmaqla olan dövrdə “Musiqi” fənni üzrə dərslərdə şagirdlər aşağıda göstərilən musiqi fəaliyyətlərində iştirak edirlər:

1. Mahnıların xorla oxunması (sözlərlə);
2. Notla melodiyanın ifası;
3. Musiqi dinlənilməsi;
4. Musiqili-ritmik hərəkət;
5. İmprovizasiya;
6. Uşaq musiqi alətlərində çalmaq.

Beləliklə, göstərilən musiqi fəaliyyətləri müddətində şagirdlərdə fəaliyyət növlərinin adlarına uyğun olaraq bacarıqlar formalaşır. Məsələn, mahnıların xorla oxuması ilə əlaqədar şagirdlərdə vokal-xor bacarıqları formalaşa bilər.

Bura dirijorun (müəllimin) göstərişlərinə uyğun oxu bacarığı: – diqqət, nəfəsalma, oxunun əvvəli, sonu aid edilir. Bununla əlaqədar ibtidai siniflərində şagirdlər kiçik oktavanın "si səsi"ndən II oktavanın "re səsi"nə qədər olan diapazonlu mahnıları təmiz şəkildə oxumaq bacarığına malik olurlar.

Hazırlıq mərhələsi (I, II siniflər) – melodiyanın müşayiətlə ifa olunması. Bu cür ifa prosesində şagirdlərin oxuduqları melodiya müşayiətdə təkrar olunur və şagirdlər müşayiətdəki müxtəlif ritmli harmonik səslənməni eşidirlər.

Əsas mərhələ (III-IV siniflər) – kanonların ifası; II ifadəli səsi olan mahnıların ifası; II səsin imitasiyası; tersiyalı ikisəslilərin ifası.

İfadəli xor ifaçılığı bilavasitə emosionallığın inkişafı ilə əlaqədar olub, musiqinin qavralnılmasını zənginləşdirir, onu dərinləşdirir ki, onda musiqi incəsənəti də öz növbəsində şagirdin şəxsiyyətinə təsir etməklə onun musiqi inkişafına səbəb olur.

Xorla oxuma fəaliyyəti şagirdlərin ən çox sevdikləri musiqi fəaliyyəti növü hesab olunur.

Musiqi dinləmə bacarığının şagirdlərin musiqi inkişafında çox böyük rolu vardır. Lakin kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətlərinə uyğun olaraq onların diqqəti hələ tam formalaşmamış olduğundan, uzun müddət bir musiqi nümunəsini tam diqqətli dinləyə bilmirlər. Ona görə də musiqi dinlənilməsi ilə əlaqədar şagirdlərə elə musiqi nümunələri təqdim etmək lazımdır ki, əvvəla onların həcmi kiçik, maraqlı, rəngarəng çalarlı və uşaqların yaş xüsusiyyətlərinə uyğun gəlsin. Adətən I və II siniflərdə şagirdlər rəqs, marş xarakterli musiqi nümunələrini asanlıqla dinləyirlər. sonrakı siniflərdə digər janrlı musiqi nümunələrini, yenə də asandan çətinə prinsipi ilə şagirdlərə dinləmək üçün təqdim etmək olar.

Musiqili-ritmik hərəkət fəaliyyət növü respublikamızda keçən əsrin 80-ci illərindən başlayaraq məktəblilərin musiqi təlimi sisteminə daxil edilmişdi. Belə ki, o vaxta qədər musiqi dərslərində ancaq üç fəaliyyət növü mahnı oxumaq, musiqi dinləmək və not savadı-tətbiq olunurdu. Lakin Baltikyanı ölkələrdə (Estoniya, Litva və Latviya) keçən əsrin əvvəllərindən ümumtəhsil məktəblərinin "Musiqi" dərslərində "Musiqili-ritmik hərəkət" fəaliyyət növünə xüsusi diqqət verilirdi. Məhz, professor, pedaqoji elmlər

doktoru, bəstəkar O.M.Rəcəbovun keçən əsrin 70-ci illərin ortaları, 80-ci illərdən əvvəllərində yaratdığı yeni musiqi təlimi sistemi üzrə proqramlarda "Musiqili-ritmik hərəkət" fəaliyyət növü də özünə yer tapdı. Bu musiqi fəaliyyəti musiqinin plastik xüsusiyyətlərinin ifadəsi kimi özünü göstərirdi.

Bu musiqi fəaliyyəti növündə bütün şagirdlər, hətta mahnı oxumaq qabiliyyəti olmayanlar belə, böyük məmnuniyyətlə iştirak edirlər. Bu musiqi fəaliyyəti müddətində şagirdlər musiqinin xarakterinə, ritminə uyğun olaraq plastik şəkildə əl, ayaq və bədən hərəkətləri edirlər. Şagirdlərdə musiqili-ritmik bacarıqlarının formalaşdırılması onların digər musiqi bacarıqlarının, musiqi qabiliyyətlərinin də inkişafına, ümumilikdə şagirdin musiqililiyinin inkişafına müsbət təsir göstərir.

İmprovizasiya da, musiqili-ritmik hərəkət fəaliyyət növü kimi, keçən əsrin 70-80-ci illərində "Musiqi" proqramlarına daxil edilmişdir.

İmprovizasiya − musiqi ifası zamanı yaranan musiqi deməkdir. Belə ki, Azərbaycan xalqının muğamları improvizasiya xarakterlidir. Yəni bu muğamı müxtəlif xanəndələr, yaxud musiqiçilər eyni olduğu kimi təkrarlaya bilməzlər. Yəni, onların təkrar ifası zamanı mütləq müəyyən dəyişikliklər olur.

Caz musiqi janrı da improvizasiya xarakterli musiqi növüdür.

Ümumtəhsil məktəblərinin "Musiqi" dərslərində müəllim eyni melodiyanın ritmini dəyişməklə onun müxtəlif variantlarda səslənməsinə nail ola bilər. Onda şagirdlər çalışacaqlar ki, ifa etdikləri melodiyalarda müəyyən dəyişikliklər etsinlər. Bu da, şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin inkişafına səbəb ola bilər.

İmprovizasiya ilə əlaqədar müəllim hər hansı bir melodik frazanı oxuya bilər və şagirdlərə təklif edər ki, onlar bu frazanı tamamlasınlar. Burada da şagirdlər bilavasitə musiqinin yaranması prosesində iştirak edə bilərlər. Aydın məsələdir ki, müxtəlif şagirdlərə musiqi frazasını tamamlamaqla əlaqədar verilə tapşırıq da müxtəlif cür tamamlana bilər ki, bu da improvizasiyanın xüsusiyyətlərindən biridir.

Birsəsli melodiyalara ikinci səsin qoşulması, yaxud ritmik müşayiətin yaradılması da improvizasiyaya aid edilə bilər.

Musiqi fəaliyyəti növlərindən biri də uşaq musiqi alətlərində çalmaqdır.

Bu cür musiqi ifaçılığında müəllim çalışmalıdır ki, uşaqlar ifasında iştirak etdikləri əsərlərin obrazına daxil ola bilsinlər.

Musiqi alətlərində çalmaq şagirdlərdə ritmik, melodik, harmonik, polifonik və tembr musiqi eşitmə qabiliyyətlərini inkişaf etdirir, onların biliklərini möhkəmləndirir və musiqini tam şəkildə qavramağa kömək edir.

Musiqi təlimi prosesinə musiqi alətlərində çalmağın daxil edilməsi, kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətlərinə uyğundur və bu onlarda ifa etdikləri, dinlədikləri musiqi nümunələrinə, ümumilikdə fənnə olan marağın artmasına səbəb olur.

Musiqi bacarıq və vərdişlərinin xarakteristikalarına yekun olaraq dissertant aşağıdakı nəticələrə gəlir:

– Musiqi bacarıqlarının prinsipial xüsusiyyəti ondan ibarətdir ki, bu bacarıqlar musiqi qavramaya əsaslanaraq formalaşır və məşğələlərin bütün növlərinə tətbiq olunur;

– Musiqi bacarıqları, musiqi bilikləri ilə qarşılıqlı əlaqədə olduqda şagirdlərin mənimsəməsinin əsası kimi özünü biruzə verir və bunlar dərs prosesində olduğu kimi, dərsdən kənarda da özünü göstərir;

– Aparıcı və xüsusi bacarıqlar özlərini musiqi fəaliyyəti prosesində musiqi haqqında fikir söyləyəndə, ona qiymət verəndə, fərqləndirəndə göstərir;

– İfaçılıq üzrə bacarıqlar da məhz musiqinin qavranılması prosesində formalaşırlar və belə bacarıqları mənimsəmədən təlimin məzmunu haqqında fikir söyləmək mümkün deyildir;

– Musiqi təliminin bütün elementləri arasında qarşılıqlı əlaqələr mövcuddur və bir bacarığın formalaşması digər musiqi bacarıqlarının formalaşmasına təsir edir.

**Dissertasiyanın 2.2.** “I-IV sinif “Musiqi” dərslərində şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması. (Eksperiment) adlanır və iki bölmədən ibarətdir: a) Musiqiyə dair veriləcək biliklərin məzmunu; b) İbtidai sinif şagirdlərinin bacarıq və vərdişlərinin formalaşdırılması.

Bu bölmədə dissertant ibtidai siniflərdə veriləcək bilikləri sistemləşdirir və eyni zamanda onların öyrədilməsi yollarını müasir metodlarla göstərir. Dissertasiya müəllifi I-IV siniflərdə melodiya və onun elementləri olan melodik xətt, registr, tembr, harmoniya, ritm, lad, polifoniya, dinamika, ifa tərzi, temp kimi bilikləri musiqi materialından istifadə etməklə öyrətməyi məsləhət görür və bu elementləri bir sxemlə klaster (şaxələnmə) üsulu ilə belə göstərir:




Şagirdlərin hansı musiqi janrına daha çox maraq göstərdiyini dissertant əvvəlcə I sinifdə, sonradan II, III və IV siniflərdə yoxlamış və bu özünü aşağıdakı cədvəldəki kimi göstərmişdir:

| ***Siniflər*** | ***Şagirdlərin sayı*** | ***Rəqs xarakterli musiqi*** | ***Marş xarakterli musiqi*** | ***Adi mahnı xarakterli musiqi*** |
|---|---|---|---|---|
| I sinif | 25 | 15 | 7 | 3 |
| II sinif | 25 | 13 | 8 | 4 |
| III sinif | 25 | 12 | 8 | 5 |
| IV sinif | 25 | 11 | 8 | 6 |

Dissertant qeyd olunan bölmədə yuxarıda qeyd olunan digər musiqi ifadə vasitələri haqqında biliklərin mənimsənilməsi dərəcələrini yoxlamış və belə bir nəticəyə gəlmişdir ki, ibtidai siniflərə aid musiqi bilikləri o vaxt müvəffəqiyyətlə mənimsənilir ki, bu proses zamanı mahnı və digər janrlı musiqi nümunəsindən istifadə edilsin. II yarımfəslin ikinci bölməsində dissertant mənimsənilmiş biliklərin bacarığa çevrilməsini eksperiment vasitəsilə izləyir və musiqi bacarıqlarını aşağıdakı cədvəldəki kimi göstərir:

| *Siniflər* | *Əsas bacarıqlar* |
|---|---|
| I sinif | Musiqi səslərinin qeyri-musiqi səslərindən fərqləndirmək; Azərbaycan xalq çalğı alətlərinin adlarını söyləmək; bəm və zil səsləri fərqləndirmək; Musiqidə marş, rəqs və mahnını xarakterinə görə fərqləndirmək; Uzun və qısa səsləri fərqləndirmək; Melodiyanın yuxarı və aşağıya hərəkətini əl ilə göstərmək; Musiqi alətlərini tembrinə görə fərqləndirmək; Melodiyanın ifa sürətini aydınlaşdırmaq; Mahnının ritmini əl çalmaqla göstərmək. |
| II sinif | Mahnıların nümunəsində musiqinin üç əsasını (marş, rəqs və mahnı) həyatla əlaqəli şəkildə bütövlükdə və şüurlu qavramaq. Bu üç əsasın ifadəli və təsviri cəhətlərini şüurlu qavramaq; musiqi danışığını musiqi obrazını yaradan əsas kimi qəbul edib şüurlu qavramaq. |
| III sinif | Mahnıların və digər musiqi janrlarının nümunəsində musiqidəki üç əsasın mənasını daha dərinləşdirmiş formada qavramaq (mahnılılıq, marşlılıq və rəqslilik); mahnının əsasını təşkil edən intonasiyanın şüurlu qavranılması; musiqi intonasiyasının, musiqi mövzusunun, musiqi surətinin mühüm inkişaf vasitələrinin şüurlu qavranılması; mahnı melodiyalarının quruluşlarının (bir hissəli, iki hissəli, üç hissəli, rondo, variasiya) məzmun və mənası ilə vəhdətdə şüurlu qavramaq. |
| IV sinif | Artıq formalaşmış musiqi mədəniyyətinə əsaslanaraq “öz xalqının” musiqisinin əsas xarakterik xüsusiyyətlərini mənimsəməklə bəstəkar və xalq musiqisini bir-birindən fərqləndirməyi şüurlu qavramaq; müxtəlif xalqların musiqiləri arasındakı ümumi və fərqli cəhətləri şüurlu qavramaq; musiqi dilini müxtəlif xalqları birləşdirən və heç bir tərcüməyə ehtiyacı olmayan bir vasitə kimi şüurlu qavramaq; musiqi nümunələri vasitəsilə vətənpərvərlik ideyasını qavrayıb, başa düşmək. |

Müşahidələr göstərir ki, cədvəldə göstərilmiş bacarıqlar əsasdır və pedaqoji prosesdə aparıcı rol oynayır.

Qeyd olunan əsas bacarıqlarla bərabər kurikulumun tələblərinə görə musiqi haqqında xüsusi biliklərlə işləmək bacarığı da nəzərə alınmalıdır. Xüsusi musiqi bilikləri dedikdə musiqi dili elementləri haqqındakı biliklər nəzərdə tutulur və bunların bacarığa çevrilməsinin formalaşması mahnı oxuma, musiqi dinləmə prosesində iki mərhələdə həyata keçirilə bilər:

| | |
|---|---|
| **I mərhələ** | Müəyyən musiqi anlayışları (səs yüksəkliyi, ritm, tembr, harmoniya, melodiya və s.) musiqi nümunələrini qavrama prosesinə təsir edir. |
| **II mərhələ** | Artıq anlayışlar bacarıq formasını alırlar. |

Müşahidələr nəticəsində məlum olmuşdur ki, bacarıqlar musiqi fəaliyyəti prosesində formalaşır və inkişaf edir.

Aparılan tədqiqatlar göstərmişdir ki, mənimsənilmiş biliklərlə işləmək bacarığı tutuşdurma, müqayisə etmə və bənzətmə üsulları ilə daha asan formalaşır. Bu formalaşmada danışıqdan, hərəkətlərdən və görmədən qarşılıqlı əlaqə şəklində istifadə olunduqda proses daha da fəallaşır, sürətlənir və möhkəmlənir. Beləliklə, belə bir nəticəyə gəlmək mümkündür: musiqi məşğələlərinin bütün növlərindən fəal surətdə istifadə edildikdə müxtəlif musiqi bacarıqlarının formalaşması üçün münbit şərait yaranır.

Musiqi əsərlərinin emosional və şüurlu qavranılması bacarıqları əsasında musiqi haqqında daha differensiallaşmış qavrayış və bədii mühakimə formalaşır.

Musiqi nümunələrinin öyrədilməsi (mahnı öyrədilməsi və musiqi dinləmə) ilə əlaqədar I-IV siniflərdə aparılan müşahidələr göstərmişdir ki, məktəblilər çox zaman musiqi nümunələrini dinləyərkən diqqətsiz olur və şüurlu qavrama bacarığı da zəif şəkildə özünü göstərir. Bu nəticə I və II siniflərdə müəyyənedici eksperiment, III-IV siniflərdə isə anket sorğusu ilə alınmışdır və alınan nəticələr belə olmuşdur:

| *Siniflər* | *Şagirdlərin sayı* | *Melodiya və sözləri birgə qavrayanlar* | *Təkcə sözlərini qavrayanlar* | *Təkcə melodiyanı qavrayanlar* |
|---|---|---|---|---|
| I s. | 25 | 6 ş. | 8 ş. | 11 ş. |
| II s. | 25 | 8 ş. | 9 ş. | 8 ş. |
| III s. | 25 | 10 ş. | 10 ş. | 5 ş. |
| IV s. | 25 | 12 ş. | 10 ş. | 3 ş. |

İnkişafın qeyri-müntəzəmliyi, yaxud fərqlərin qanunauyğunsuz olduğunun səbəblərini aşağıdakı kimi araşdırmaq mümkündür:

1. Müəllim şagirdlərin mahnı dinləmə bacarığı üzərində sistemli iş aparmır;

2. İbtidai siniflərdə əsasən musiqi savadı olmayan, yaxud az məlumatı olan müəllimlər dərs deyirlər;

3. Ailədə bu sahədə demək olar ki, heç bir iş aparılmır;

4. Məktəblilərin əksəriyyətində ibtidai siniflərdə musiqi alətindən istifadə olunmur;

5. Musiqi fənninə laqeyd münasibət bəslənir və çox zaman bu fənn ana dili və riyaziyyat fənlərilə əvəz olunur;

6. Mahnı öyrədilərkən musiqi frazasına uyğun sözlər üzərində iş aparılmır;

7. Mahnı öyrənilməsi tərbiyə prosesi ilə əlaqələndirilmir;

8. İbtidai sinif şagirdləri bədii özfəaliyyət musiqi dərnəklərinə cəlb olunmurlar.

**Öyrədici eksperiment (II mərhələ).**

Mahnıların şüurlu qavramaq bacarığını inkişaf etdirmək məqsədilə öyrədici eksperiment qoyulmuşdur. Məlum olmuşdur ki, şagirdlər lad, ritm, harmoniya və temp, quruluş və s. kimi musiqi ifadə vasitələrindən məlumatlara malik olduqda öyrədilən mahnı daha şüurlu qavranılır və uzun müddət yadda qalır. Qeyd olunan biliklər isə musiqi nümunələri vasitəsilə, xüsusilə də mahnılar vasitəsilə daha yaxşlı mənimsənilir. Bunun əsas səbəbi şagirdlərin mahnı janrını daha çox sevmələridir. I-II siniflərdə mahnını onun tabe olduğu muğam mayesilə, rənglərlə əlaqədar müqayisə etməklə daha asan mənimsətmək mümkündür. Belə olduqda şagirdləri muğam anlayışı ilə IV sinifdən deyil, II sinifdən, heç olmazsa onların adlarını deməklə tanış etmək mümkündür.

Öyrədici eksperiment prosesində ritmə görə mahnının tanınması, bir, iki-üçsəsli ifaya marağı, tembrlə, əsərin quruluşu ilə əlaqədar aparılmış yoxlamalar öz əksini müxtəlif cədvəllərdə tapmışdır. Bu bölmə ilə əlaqədar dissertant aşağıdakı nəticələrə gəlir.

1) Şagirdlərdə şüurlu qavrama bacarığını formalaşdırma üçün onlar həmişə musiqi fəaliyyətində olmalıdır.

2) Lad, ritm, temp, tembr, melodiya, harmoniya, polifoniya kimi musiqi ifadə vasitələrini mənimsəyən şagirdlərdə şüurlu qavrama prosesi də fəal olur.

3) Əldə olunmuş musiqi bilikləri tez-tez təkrarlanmalıdır ki, əldə edilmiş musiqi bacarıqları vərdişlərə çevrilə bilsin.

4) Mahnılar nümunəsində əldə edilmiş musiqi bacarıq və vərdişləri sonradan asanlıqla şagirdlər tərəfindən iri həcmli musiqi janrlarının qavranılması prosesində tətbiq oluna və istifadə edilə bilər.

5) Musiqi müəllimi milli musiqimizdən başlayaraq bəşəri musiqiyə doğru hərəkət edərsə, onda məktəblilər əldə etdikləri bilik, bacarıq və

vərdişləri asanlıqla əcnəbi musiqi nümunələrinin qavranılmasında istifadə edə bilərlər.

**Dissertant mövzu ilə əlaqədar apardığı tədqiqat nəticəsində isə aşağıda göstərilən ümumi nəticələrə gəlmişdir:**

1. İbtidai sinif şagirdlərinin musiqi inkişafının səmərəli və əhəmiyyətli olması üçün onların ilk növbədə musiqi qavrama qabiliyyətinin inkişafına nail olmaq lazımdır. Belə ki, musiqi qavrama prosesi düzgün təşkil edilməzsə, musiqiyə dair bilik, bacarıq və vərdişlərinin inkişafından danışmaq olmaz.

2. Düzgün təşkil olunmuş musiqi qavrama prosesində əldə edilmiş bilik, bacarıq və vərdişlər uzun müddətli və keyfiyyətli olur.

3. Kiçikyaşlı məktəblilərin şüurunun inkişaf etdirilməsi üçün milli mahnılarımızdan və digər janrlı milli musiqimizdən isifadə etmək lazımdır. Məhz bu musiqi nümunələri şagirdlərin dünya musiqiyə çıxışı üçün bir növ körpü rolunu oynaya bilər.

4. Kiçikyaşlı məktəblilərin əldə etdikləri musiqiyə dair bilikləri müntəzəm və ardıcıl olaraq dərs prosesində musiqi fəaliyyəti zamanı təkrarlamaq və onların tətbiqinə nail olmaq onların musiqi inkişafı üçün zəmin yarada bilər.

5. Tədqiqat zamanı məlum oldu ki, bəstəkarlarımız uşaq musiqisinin yaradılmasına az diqqət yetirirlər. Məktəblilərimizin musiqi mədəniyyətinin formalaşdırılması üçün uşaq mahnıları ilə yanaşı digər mürəkkəb musiqi janrların da (operetta, opera, balet, oratoriya, kantatalar və s.) əsərlər çox azlıq təşkil edir.

6. Apardığımız tədqiqatlar göstərmişdir ki, ladlar haqqında biliklərə yiyələnmək üçün Avropa ladları olan major və minora xalqımıza məxsus olan ladları öyrəndikdən sonra müraciət etmək daha doğru ola bilər.

7. Məlum olmuşdur ki, musiqiyə dair bilik, bacarıq və vərdişlərə yiyələnmiş şagirdlər ifa etdikləri və dinlədikləri musiqi nümunələri haqda fikir söyləyərkən öz mədəniyyətinin yüksək olduğunu göstərə bilirlər.

8. Müşahidələr göstərir ki, şagirdlər əldə etdikləri bilik, bacarıq və vərdişləri "Ana dili", "Təsviri incəsənət", "Riyaziyyat", "Həyat bilgisi" fənlərin tədrisində və əksinə tətbiq edə bilirlər ki, bu da fənlərarası inteqrasiyasının daha səmərli olması üçün şərait yaradır.

9. Məlum olmuşdur ki, bəstəkarlarımızın yaratdığı uşaq mahnıları əsasən "Rast", "Şur" və "Bayatı-Şiraz" ladlarına əsaslanırlar. Digər ladlara əsaslanan mahnılar çox azlıq təşkil edir ki, bu da Azərbaycan xalq ladları haqqında tam biliklər almağa mənfi təsir göstərir.

**Dissertasiyasının məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Musiqi və onun tədrisi metodikası". Proqram. Bakı-2008, 56 s.
2. İbtidai siniflərdə Azərbaycan xalq musiqisinin tədrisi və inkişafı. // Təhsil Problemləri İnstitutu "Elmi əsərlər" № 3-4, Bakı-2009, s. 191-193
3. Azərbaycan xalq musiqi janrları. // Təhsil Problemləri İnstitutu "Elmi əsərlər" № 1, Bakı-2010, s. 231-233.
4. İbtidai siniflərin musiqi dərslərində bəstəkar və xalq mahnılarının xorla oxuma metodları. / Pedaqoji fakültənin professor-müəllim heyyətinin ADPU-nun 90 illiyinə həsr olunmuş elmi-praktik konfrans materialı. Bakı-2011, s. 278-283
5. Содержание и методика работы, связанное с прослушиванием музыки. / Развитие профессиональной компетентности специалистов в области реабилитации и образования инвалидов, (материалы научно-практической конференции), Санкт-Петербург – 2012, с. 200-202.
6. Dərsdənkənar tədbirlərdə şagirdlərə mənəvi - estetik keyfiyyətlərin aşılanması prosesində Azərbaycan professional musiqi nümunələrindən istifadənin imkan və yolları. / ADMIU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsəənətin rolu", Bakı-2012, s. 91-92.
7. "Şagirdlərə mənəvi-estetik keyfiyyətlərin aşılanmasında Azərbaycan professional musiqisindən istifadənin imkan və yolları", Elmi metodik jurnal, "Məktəbəqədər və ibtidai təhsil" № 2, Bakı-2012, s. 83-93
8. Musiqi dərslərində şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşması. / ADMİU-nun 90 illiyinə həsr olunmuş XII Beynalxalq elmi-praktik konfransın materialları. "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri", Bakı-2013, s. 68-69
9. Musiqi dinlənilməsi ilə əlaqədar işin məzmunu və metodikası. // Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri, Cild-10, № 1, Naxçıvan-2014, s. 127-130
10. Məktəbəqədər tədris müəssisələrində diaqnostik müşahidə zamanı dəyərləndirmə və qiymətləndirmə portfoliodan istifadə metodları. // Tədrisdə Dövlət strategiyası mövzusunda " Elmi seminar toplusu" Bakı-2014, s. 94-101
11. Метроритмические особенности Азербайджанских народных танцев и музыкальное воспитани. // Этносоциум и межнациональная культура Москва Этносоциум 2015, №1 (79), с.140-144.

**Айнур Вахид гызы Гусейнова**

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ ЗНАНИЙ, УМЕНИЙ И НАВЫКОВ НА УРОКАХ МУЗЫКИ

## Резюме

Диссертация состоит из введения, двух глав, пяти подзаголовков, заключения и списка использованной литературы. Во **введении** отражаются такие вопросы как актуальность темы, объект исследования, определяются цель и задачи исследования, его методологическая основа, методы, излагаются основные положения, выносимые на защиту, даются сведения об апробации.

**Первая глава** диссертация называется **«Общие вопросы формирования знаний, умений и навыков в процессе преподавания предмета музыки»** и состоит из трех подзаголовков: **1.1.** называется – **«Рассмотрение проблемы в программах по музыке»**. В данном подзаголовке анализируются программы связанные с предметом музыка охватывающие период с 20-х годов прошлого века современного периода. **1.2.** называется – **«Постановка проблемы в учебниках по музыке»**. В данном подзаголовке анализируются учебники по музыке напечатанные в период с 1922 по 2011 год. **1.3.** называется – **«Разработка проблемы в журнальных статьях, диссертациях, научно-методической литературе»**. В связи с данной проблемой было исследовано огромное количество диссертационных работ, научных статей, а также научно-методической литературы.

**Вторая глава** диссертации называется **«Формирование знаний, умений и навыков в процессе преподавания предмета музыки»** и состоит из двух подзаголовков: **2.1.** называется – **«Знания, умения и навыки по музыке, предназначенные усвоению в начальных классах в соответствии с «Новым курикулумом по музыке»**. **2.2.** называется – **«Формирование у учащихся знаний, умений и навыков на уроках музыки (Эксперимент)»** и состоит из двух частей: **а)** содержание знаний по музыке; **б)** формирование умений и навыков у учащихся начальных классов. Здесь систематизируются знания, предназначенные усвоению учащимися начальных классов, и в то же время показываются пути их преподавания современными методами.

В конце диссертации дается **заключение**, состоящее из девяти пунктов.

**Aynur Vahid Huseynova**

## SYSTEM OF WORK IN THE ACQUISITION OF KNOWLEDGE, SKILLS HABIT FORMATION OF PRIMARY SCHOOL'S STUDENTS DURING MUSIC LESSONS

### Summary

The present dissertation consist of 2 chapters, 5 subjections, conclusion and the list of references/ Introduction deals with the thematic justification, object of research, aim, propositions, objectives, methodological basis, methods, provisions put forward to the defence of a thesis, scientific novelty, significance , approbation.

The first chapter deals with the general issues of knowledge and skills acquisition habit formation in the process of training during music lessons, it consists of 3 subjections: **1.1. Analysis of the issue in the music programs.** This chapter deals with the problems of the music lesson in Azerbaijan from the 20-th of the last century, and programmes on the music are analysed. **1.2. Is named "Analysis of music in the textbooks".** This chapter deals with the music books printed from 1922 till 2011. **1.3. Is named "Analysis of the issue in the articles, dissertations, methodological literature".** Dearling with this issue has been analyzed many articles, dissertations and scientific literature.

The second chapter deals with Knowledge and skills acquisition, habit formation in the music lessons. It consist of 2 subjections: **2.1 Is named "Knowledge and skills acquisition and habits to be mastered in primary schools according to the new music curriculums". 2.2 Is named Acquisition of the knowledge and skills, habit formation during the music lessons in 1-4 classes( Experiment)** It consist of 2 subjections: **a)** Content of knowledge dealing with music to be teached; **b)** Formation of habits and skills of primary students. In this chapter respondent sums up knowledge to bge given in the primary schools and at the same time shows ways of its teaching using modern methods.

Result consisting of nine (9) parts is given in the conclusion of the dissertation.

Çapa imzalanıb: 15.04.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ ИМЕНИ УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АЙНУР ВАХИД гызы ГУСЕЙНОВА**

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ ЗНАНИЙ, УМЕНИЙ И НАВЫКОВ НА УРОКАХ МУЗЫКИ

5801.01 – Теория и методика обучения и воспитания
( методика преподавания музыки)

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по педагогике

**Баку – 2015**